

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 233 (23.395)

*11 dekabr 2019-cu il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Dekabrın 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin rəsmi qarşılanma mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev İordaniya Kralı II Abdullahı qarşılayıb.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə təkbətək görüşü olub. Ölkə başçısı bu yaxınlarda Soçidə görüşdüklərindən, qardaşlıq münasibətlərinin inkişafından, İordaniyadan Azərbaycana gələn turistlərin sayının 20 faizdən çox olduğundan, insanların bir-birlərini daha tez-tez ziyarət etmələri üçün birbaşa hava əlaqəsinin yaradılmasından danışıb.

İordaniya Kralı II Abdullah Prezident İlham Əliyevə regionda və dünyada oynadığı rola, ölkəsinə münasibətdə xeyirxahlığına və dəstəyinə görə təşəkkür edib.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə işçi nahar edib.



## Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqinin təmin olunması, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Ordubad rayonunda icbari tibbi sığorta tətbiq edilsin.
2. Ordubad Rayon Mərkəzi Xəstəxanasına publik hüquqi şəxs statusu verilsin.
3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin Nizamnaməsini təsdiq etsin və 2019-cu il dekabrın 1-dən fəaliyyətini təmin etsin;

3.2. icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar Ordubad Rayon Mərkəzi Xəstəxanasının işçilərinin aylıq vəzifə maaşlarının 2019-cu il dekabrın 1-dən 50 faiz artırılmasını təmin etsin.

4. Bütün mərkəzi icra hakimiyyəti orqanlarına, aidiyyəti dövlət qurumlarına, Ordubad Rayon İcra Hakimiyyətinə tapşırılsın ki, bu Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə zəruri köməklik göstərilməsini təmin etsinlər.
5. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və Vergilər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 10 dekabr 2019-cu il*

## Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanmışdır

Dekabrın 10-da Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək demişdir ki, muxtar respublikada səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini xeyli yüksəltmişdir. Muxtar respublikanın bütün yaşayış məntəqələrində aparılan quruculuq işləri səhiyyə müəssisələrini də əhatə etmişdir. Səhiyyə islahatlarının ən mühüm cəhətlərindən biri də muxtar respublikada icbari tibbi sığortanın tətbiqidir. Bu ilin noyabr ayından etibarən Ordubad rayonunda icbari tibbi sığortaya keçidlə bağlı işlərə başlanılmışdır. Əhaliyə rayon mərkəzi xəstəxanası, 12 həkim ambulatoriyası və 27 feldşer-mama məntəqəsi vasitəsilə tibbi xidmət göstərilir. İcbari tibbi sığortaya keçid rayon əhalisinin sağlamlıq göstəricilərinin yüksəlməsində mühüm rol oynayacaqdır. Niyazi Novruzov yaradılan şəraitə görə səhiyyə işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.







İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov demişdir ki, muxtar respublikada icbari tibbi sığortanın tətbiqi səhiyyə xidmətinin keyfiyyətinin daha da artırılmasına töhfə verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamlarına əsasən muxtar respublikada icbari tibbi sığortanın tətbiqi təkamül yolu ilə aparılmış, tələb olunan kadr, avadanlıq, təlim, resurs və infrastruktur təminatı uğurla həyata keçirilmişdir. Artıq muxtar respublikanın Sədərək, Şərur, Kəngərli və Şahbuz rayonlarında bu iş başa çatdırılıb. 2019-cu ilin ötən dövründə həmin rayonlarda yaşayan əhali tərəfindən, ümumilikdə, tibb müəssisələrinə 23 min 314 müraciət edilmişdir. Müraciət edənlərə 58 min 978 adda tibbi xidmət göstərilmişdir. İcbari Tibbi Sığortanın baza zərfinə daxil olan rayon mərkəzi xəstəxanaları tərəfindən həyata keçirilməsi mümkün olmayan tibbi xidmətlər üçün icbari tibbi sığortanın tətbiqində iştirak edən digər xəstəxanalara Sədərək, Şərur, Kəngərli və Şahbuz rayonlarından, ümumilikdə,

*Ardı 2-ci səhifədə*

1395 göndəriş olmuşdur. Samiq Sadıxov Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi məqsədilə görülən işləri diqqətə çatdırmışdır.

Tibb bacısı Elnarə Həmdiyeva minnətdarlıq edərək demişdir ki, muxtar respublikada səhiyyə sahəsinə göstərilən qayğı göz önündədir. Bu gün Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi rayon əhalisinə nümunəvi tibbi xidmət göstərməyə imkan verəcəkdir. Elnarə Həmdiyeva yaradılan şəraitdən istifadə edərək əhaliyə hərtərəfli səhiyyə xidməti göstərəcəklərinə söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi münasibətilə rayon əhalisini və tədbir iştirakçılarını təbrik edərək demişdir: Azərbaycan bu gün inkişaf etmiş ölkələr sırasındadır. Ölkəmizdə insan amilinə yüksək qiymət verilir. İnsanların sağlamlıqlarının qorunması isə müasir səhiyyə sisteminin qurulmasından asılıdır.

Ali Məclisin Sədri demişdir: Əhaliyə keyfiyyətli səhiyyə xidməti göstərilməsinin müasir yolu icbari tibbi sığortanın tətbiqidir. Lakin lazımı səhiyyə infrastrukturu yaratmadan bu işi həyata keçirmək mümkün deyil. Ona görə də xəstəxanalara kompüter proqramı təminatı üçün fiber-optik kabel çəkilmiş, internetlə təmin olunmuşdur. Səhiyyə müəssisələri – rayon mərkəzi xəstəxanaları, sahə xəstəxanaları, həkim ambulatoriyaları və feldşer-mama məntəqələri yenidən qurulmuş, müasir tibbi avadanlıqlarla təmin olunmuş, yeni texnologiyalar tətbiq edilmişdir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada səhiyyə xidmətinin səviyyəsi yüksəlmişdir.



Ordubad rayonunda da bu sahədə əhəmiyyətli tədbirlər görülmüş, səhiyyə sistemi müasir tələblər səviyyəsində qurulmuşdur. Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın baza zərfinə daxil olan 1525 tibbi xidmətin 700-ə yaxını Ordubad rayonundakı səhiyyə müəssisələri tərəfindən həyata keçiriləcəkdir. Rayonda yaradılan müasir səhiyyə infrastrukturu, görülən işlər gələcəkdə göstərilən tibbi xidmətlərin sayının artmasına və əhalinin hərtərəfli tibbi xidmətlə təmin olunmasına imkan verəcək, 50 mindən artıq rayon əhalisi öz yaşadıqları ərazidə bu xidmətlərdən faydalanacaqdır.

"Bu gün muxtar respublikada həkim hazırlığı işi də uğurla həyata keçirilir. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Naxçıvan Tibb Kolleci muxtar respublikanın səhiyyə müəssisələrinin həkim və orta tibb işçilərinə olan tələbatını ödəyir", – deyən Ali Məclisin Sədri icbari tibbi sığortanın tətbiqini vacib işlərdən hesab etmişdir. Qeyd olunmuşdur ki, insanların sağlamlığının qorunması üçün dövlət tərəfindən lazımi tədbirlər həyata keçirilir. İcbari tibbi sığortanın tətbiqi həm də həkimlərin formalaşmasına mühüm təsir göstərəcək. Ona görə də xəstəxanada həkim-xəstə münasibətləri düzgün qurulmalı, dəqiq diaqnozlar qoyulmalı və müayinələr aparılmalıdır. Kollektiv yaradılanları qorumalı, tibb işçiləri alınan avadanlıqları öyrənməli və onlardan səmərəli istifadə olunmalı, rayonda icbari tibbi sığortanın tətbiqi uğurla həyata keçirilməlidir.

"İcbari tibbi sığortanın tətbiqi ilə Ordubad Rayon Mərkəzi Xəstəxanasının həkim və tibb işçilərinin əməkhaqları 50 faiz artırılacaqdır. Yeni tibbi avadanlıqların alınması və əməkhaqların artırılması kollektiv qarşısında bir vəzifə qoyur: o da sakinlərə keyfiyyətli səhiyyə xidməti göstərməkdən ibarətdir", – deyən Ali Məclisin Sədri kollektivə fəaliyyətində uğurlar arzulamış, icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, icbari tibbi sığortanın tətbiqi məqsədilə Ordubad Rayon Mərkəzi Xəstəxanasında yenidənqurma işləri aparılmış, Təcili tibbi yardım şöbəsi yenidən təşkil edilmiş, ilkin səhiyyə xidməti müasir tələblərə uyğun qurulmuşdur. Poliklinika şöbəsində, Burun-qulaq-boğaz, Oftalmoloji və Stomatoloji kabinələrdə, Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsində, Laboratoriyada, Ginekoloji və doğuş bölməsində 50 adda yeni tibbi avadanlıq və ləvazimatlar quraşdırılmış, palatalar mərkəzi oksigen sistemi ilə təmin edilmişdir.

Xəstəxanada sürətli internet şəbəkəsi yaradılmış, 46 kompüter alınmış, mərkəzi server vasitəsilə "Səhiyyə informasiya idarəetmə sistemi" yaradılmış və icbari tibbi sığortanın tətbiqində iştirak edən digər tibb müəssisələri ilə qarşılıqlı əlaqə təmin olunmuşdur. Hazırda xəstələrin qeydiyyatı "Səhiyyə informasiya idarəetmə sistemi" vasitəsilə həyata keçirilir. Agentliyin Ordubad Rayon Mərkəzi Xəstəxanası üzrə qeydiyyat məntəqəsi və elektron məlumat bazası yaradılmışdır.

## Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilmişdir



Dekabrın 10-da Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir ki, muxtar respublikada səhiyyə müəssisələrinin yenidən qurulması, müasir tibbi avadanlıqların alınması və kadr hazırlığı sahəsində görülən işlər öz nəticəsini vermişdir. Səhiyyənin inkişafı sahəsində görülən işlər muxtar respublikada icbari tibbi sığortanın tətbiq olunmasına imkan verir. İxtisaslı tibbi heyətin formalaşması nəticəsində Ordubad rayonunda icbari tibbi sığorta uğurla tətbiq olunacaqdır.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov, Naxçıvan Muxtar Respublikası baş nazirinin müavini-maliyyə naziri Səbuhi Məmmədov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov aidiyyəti üzrə məlumat vermişlər.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən muxtar respublikada icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərin nəzarətdə saxlanılması, bu sahədəki yeniliklərin öyrənilərək tətbiq edilməsi, Culfa və Babək rayonlarında icbari tibbi sığortanın tətbiqi sahəsində işlərin başa çatdırılması barədə aid qurumlara müvafiq tapşırıqlar vermişdir.

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov icbari tibbi sığortanın tətbiqi və səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlərə görə rayon sakinləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qazaxıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimov ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış, onu səfir təyin olunması münasibətilə təbrik etmişdir.

Naxçıvanın ərazisi, əhalisi, keçdiyi inkişaf yolu barədə məlumat verən Ali Məclisin Sədri muxtar respublika iqtisadiyyatının müxtəlif sahələrinin inkişaf etdiyini diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, muxtar respublika özünü əsas ərzaq və sənaye məhsulları ilə təmin edir və ixrac imkanlarına malikdir.

Səfir Serjan Abdıkarimov səmimi görüşə görə minnətdarlıq etmişdir. Azərbaycanda diplomatik fəaliyyətə başlaması və Naxçıvana səfərindən məmnunluğunu bildirən qonaq Qazaxıstan və Azərbaycan arasındakı mövcud əlaqələrdən danışmışdır. Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiklərini bildirən diplomat bu sahədə səylərin artırılacağını qeyd etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## Proqnoz tapşırığa 115,7 faiz əməl olunub



Dövlət büdcəsinə vergi daxilolmalarının təmin olunması, vergitutma bazasının genişləndirilməsi, səmərəli vergi inzibatçılığının və vergi nəzarətinin həyata keçirilməsi, vergi qanunvericiliyinə edilmiş dəyişikliklərdən irəli gələrək vergi uçotunun düzgün qurulması Vergilər Nazirliyinin əsas fəaliyyət istiqamətlərindən biridir.

2019-cu ilin noyabr ayında Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz 115,7 faiz icra edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,3 faiz artıb. Daxil olmuş vəsaitlərin mənbəyinə gəldikdə isə onların 30,4 faizi dövlət sektorunun, 69,6 faizi isə özəl sektorun payına düşüb.

Qeyd edilən dövrdə məcburi dövlət sosial sığorta ödəmələri sahəsində vətəndaşlarla və vergiödəyiciləri ilə keçirilən maarifləndirici görüşlər öz səmərəsini verib və bu sahədə vergi daxilolmaları əhəmiyyətli dərəcədə artıb. Belə ki, məcburi dövlət sosial sığorta haqları üzrə proqnoza 134,1 faiz, işsizlikdən sığorta üzrə proqnoza isə 119,5 faiz əməl edilib.

Muxtar respublikada sahibkarların fəaliyyəti üçün yaradılmış hərtərəfli şərait, əlverişli biznes və investisiya mühitinin nəticəsidir ki, Vergilər Nazirliyinin "bir pəncərə" qeydiyyat sistemi vasitəsilə 2019-cu ilin noyabr ayında 6 hüquqi şəxs dövlət qeydiyyatına və 251 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Sahibkarlıq uçotuna alınan fiziki şəxslərin 72,1 faizi muxtar respublikanın rayonlarının payına düşüb.

***Naxçıvan Muxtar Respublikası***
***Vergilər Nazirliyinin***
***mətbuat xidməti***

## İnsan Hüquqları Günü münasibətilə bilik yarışı



*1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin qəbul etdiyi Ümumi Bəyannaməyə əsasən hər il dekabrın 10-u dünyada “İnsan Hüquqları Günü” kimi qeyd olunur. Bu münasibətlə dünən Naxçıvan şəhərindəki Gənclər Mərkəzində muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında bilik yarışı keçirilib.*

Tədbiri Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova açaraq bildirib ki, demokratiya və insan hüquqlarına, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Qeyd olunub ki, 1995-ci ildə ulu öndərin müəllifi olduğu ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında dövlətimizin ali məqsədlərindən biri kimi məhz insan haqlarının qorunması təsbit edilib. Görkəmli dövlət xadiminin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən müddətdə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilib, milli qanunvericilik bazası daha da təkmilləşdirilib.

Vurğulanıb ki, ötən dövr ərzində bu sahədə həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilib. Belə ki, insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərinin və ədalət mühakiməsinin səmərəliliyi artırılıb. Həmçinin əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi, əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi istiqamətində geniş tədbirlər həyata keçirilib.

Diqqətə çatdırılıb ki, təşkil olunan bilik yarışının məqsədi gənclər arasında ölkəmizdəki dövlət qanunvericiliyinin, Naxçıvanın muxtariyyətinin tarixi və hüquqi aspektlərinin hərtərəfli öyrənilməsinin təşviq edilməsi, gənclərin hüquq sahəsinə olan maraqlarının artırılması, həmçinin onların vətənpərvərlik hisslərinin daha da yüksəldilməsidir. Bu müsabiqə, eyni zamanda istedadlı gənclərin aşkar edilməsi və muxtar respublikada olan istedad potensialının inkişafının stimullaşdırılmasına da xidmət edir. Ülkər Bayramova çıxışının sonunda gənclərə bilik yarışında uğurlar arzulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da uğurla həyata keçirilir. Son illər gənclərimizin muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının uğurla reallaşdırılması, gənc istedadlara dövlət qayğısının artırılması, gənc kadrların müxtəlif sahələrdə irəli çəkilməsi və fəaliyyətlərinin qiymətləndirilməsi, bütövlükdə, gənclər siyasətinin həyata keçirilməsi istiqamətində görülən tədbirlərdir.

İştirakçılar yarışın şərtləri barədə ətraflı məlumatlandırıldıqdan sonra bilik yarışına start verilib. İki turdan ibarət yarışda tələbələr komanda şəklində biliklərini sınayıblar.

Gərgin keçən bilik yarışının sonunda ali təhsil müəssisələri üzrə “Naxçıvan” Universitetinin “Nəqşicahan” komandası birinci, Naxçıvan Dövlət Universitetinin “İldırım” komandası ikinci, Naxçıvan Müəllimlər İnstitutunun “Buta” komandası isə üçüncü yerə layiq görülüblər. Orta ixtisas təhsili müəssisələri arasında isə Naxçıvan Tibb Kollecinin “İbn Sina” komandası birinci, Naxçıvan Musiqi Kollecinin “Virtuoz” komandası ikinci, Naxçıvan Dövlət Texniki Kollecinin “Zirvə” komandası üçüncü yeri tutub.

Sonda qalib və fərqlənən komandalar Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəxri fərmanları və Gənclər Fondunun diplomları ilə təltif olunublar.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Ölkəmiz Türkiyədə keçirilən 3-cü Gənclər Festivalında təmsil olunub



*Dekabrın 2-dən 6-dək Türkiyənin İstanbul şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Gənclər Festivalı keçirilib.*

Türkiyə Respublikası Gənclər və İdman Nazirliyi və Türk Şurasının birgə təşkil etdiyi festival Dünya Etno Sport Federasiyasının Prezidenti Bilal Erdoğan, Türk Şurası Baş Katibi Bağdad Əmrəyev və Türkiyə Respublikası Gənclər və İdman Nazirliyinin Gənclər şöbəsinin müdir müavini Serdal Eralcinin rəsmi protokol çıxışları ilə başlayıb. Tədbirdə Azərbaycan nümayəndə heyətinin rəhbəri, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov Azərbaycan, o cümlədən Naxçıvanla bağlı geniş məlumat verib və ölkə gənclərinin fəaliyyətini əks etdirən slayd nümayiş olunub.

Daha sonra Türk Şurası Gənclər Platformasının prezidenti Mirhəsən Seyidov Qırğızıstanın paytaxtı Bişkekdə həyata keçirilən Türk Şurası Gənclər və İdman nazirlərinin 4-cü görüşündə Türk Şurası Gənclər Platformasının 2020-ci il üzrə fəaliyyət planı haqqında ətraflı məlumat verib, təkliflərlə çıxış edib.

Qeyd edək ki, festivalda Türk Şurasının üzvü olan Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Özbəkistan və digər ölkələrin təmsilçiləri, ümumilikdə, 121 nəfər nümayəndə iştirak edib.

Festival çərçivəsində gənclik layihələri, könüllülük seminarları, ortaq mədəniyyətimiz və tariximizə dair konfrans, gənclik mərkəzini ziyarətlər və digər tədbirlər həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Müşavirə keçirilib



*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində xüsusi mühafizə olunan təbiət ərazilərində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib.*

Müşavirəni giriş sözü ilə nazir Mayis Əliyev açaraq qeyd edib ki, muxtar respublikada ən mühüm ekoloji tədbir kimi yaşıllaşdırma, meşəsalma və meşəbərpa işlərinə daim diqqət yetirilir. Qədim diyarımızda ekologiyanın zənginləşdirilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, muxtar respublika ərazisinin 20 faizə yaxını yaşıllıqlardan ibarətdir. Yaşıllaşdırma tədbirləri payız aylarında da davam etdirilib, yeni meyvə bağları salınıb.

Nazir vurğulayıb ki, ötən illərdə görülən işlər sayəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin coğrafiyası xeyli genişlənib. 1969-cu ildə Ordubad Dövlət Təbiət Yasaqlığı, 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı və Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə “Arazboyu” Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə “Arpaçay” Dövlət Təbiət Yasaqlığı yaradılıb. Bundan başqa, ölkə başçısının 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması təbiəti mühafizə ilə yanaşı, ekoturizmin inkişafına da geniş imkanlar açıb.

Bildirilib ki, ətraf mühitin qorunmasında ekoloji maarifləndirmənin mühüm rolu vardır. Ona görə də muxtar respublikada insanların ətraf mühit və ekoloji təhlükəsizlik sahəsində bilik və bacarıqlarının artırılması, gənc nəslin ekoloji mədəniyyət səviyyəsinin təkmilləşdirilməsi və ətraf mühitin birgə mühafizəsinə cəlb olunması diqqət mərkəzində saxlanılır, bu məqsədlə ardıcıl tədbirlər görülür.

Müşavirədə Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsinin müdiri Azər Məmmədov, Akademik Həsən Əliyev adına Ordubad Milli Parkının direktoru Aydın Hüseynov, Şahbuz Dövlət Təbiət Qoruğunun direktoru Həsənqulu Kazımov və “Arpaçay” Dövlət Təbiət Yasaqlığının direktoru Elşən Seyidovun çıxışları dinlənilib.

Sonda nöqsanlar müzakirə olunub və xüsusi mühafizə olunan təbiət ərazilərində xidmət göstərən əməkdaşlara geyim formaları təqdim edilib.

**✍ Pərviz HACILI**

## Aztəminatlı ailələrin özünüməşğulluğu diqqət mərkəzində saxlanılır

Ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılmasına köməklik göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünüməşğulluq proqramının növbəti mərhələsi çərçivəsində Şərur, Babək, Ordubad, Culfa və Kəngərli rayonları üzrə, ümumilikdə, 12 nəfərə yanında balası olan iribuynuzlu, 5 nəfərə yanında balası olan 10 baş xırdabuynuzlu heyvan, 1 nəfərə dülgər alətləri, 1 nəfərə isə dərzi avadanlıqları və ləvazimatları verilib.



Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası bu baxımdan mühüm əhəmiyyətə malikdir. Proqramın icrası, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə hərtərəfli şərait yaradır, aztəminatlı ailələrin özünüməşğulluq imkanlarını artırır. Bildirilib ki, özünüməşğulluq proqramı çərçivəsində vətəndaşlara verilən aktivlərdə və təsərrüfatlarda daimi olaraq artım müşahidə olunur. Bu da onların sosial rifah halının yaxşılaşdırılmasına, məşğulluqlarının təmin olunmasına və fərdi təsərrüfatlarının inkişafına köməklik göstərir.

Daha sonra aztəminatlı ailə təmsilçilərinə verilən aktivlərlə bağlı sənədlər təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***




*Yeni nəşrlər*

## Yeni tanıtım kitabı işıq üzü görüb

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında” 2019-cu il 2 avqust tarixli Sərəncamının icrası istiqamətində görülən tədbirlər çərçivəsində “Naxçıvan Dövlət Tarix Muzeyi – 95” adlı tanıtım kitabı nəşr edilib.*

Kitabın ilk səhifəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin muzeylərimiz haqqında ***“Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır”*** dəyərli fikri yer alıb.

Yeni nəşrdə “Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı oxuculara təqdim olunur. Sərəncamda deyilir: *“Beş min illik tarixə malik qədim mədəniyyət mərkəzi Naxçıvanın milli-mədəni və tarixi irsinin daşıyıcısı olan Naxçıvan Dövlət Tarix Muzeyinin yaradılmasından 95 ili tamam olur. 1924-cü il oktyabrın 30-da Naxçıvan şəhərində qurulan ilk Tarix-Etnoqrafiya Muzeyinin maddi-mədəniyyət nümunələrinin qorunması və gələcək nəsillərə çatdırılmasında böyük əhəmiyyəti olmuşdur. Muzey fəaliyyətinin ilk illərində tarixi əhəmiyyətə malik eksponatların toplanması və mühafizəsi işini təşkil edərək muxtar respublikada muzeyşünaslığın əsasını qoymuşdur”.*

Bu sərəncama əsasən təsdiq edilən “Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” da tanıtım kitabında yer alıb.

Kitabda Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimovun “Naxçıvan Dövlət Tarix Muzeyinin yaranması, təşəkkülü və inkişafı”, arxeoloq-alim V.M.Sısoyevin “Balabəy Əlibəyovun Naxçıvan Muzeyi”, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin “Naxçıvanda ilk Tarix-Etnoqrafiya Muzeyinin yaradıcısı Balabəy Əlibəyov (Əlixanov) haqqında bəzi qeydlər”, Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədovanın “Əsrə yaxın tarix və ya bir ekspedisiyanın izi ilə”, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərlinin “Naxçıvan Dövlət Tarix Muzeyində nümayiş etdirilən epiqrafik abidələr”, filologiya üzrə elmlər doktoru Fərman Xəlilovun “Naxçıvan Dövlət Tarix Muzeyinin fəaliyyətinə dair bəzi sənədlər”, filologiya üzrə fəlsəfə doktoru Leyla Səfərova və tarix müəllimi Şəhla Talıbovanın birlikdə yazdıqları “Mirbağır Mirheydərzadə Naxçıvan Dövlət Tarix Muzeyinin yaradıcılarından biri kimi” irihəcmli məqalələri muzeyin tarixini əks etdirən fotoşəkillərlə birgə özünə yer tapıb. Məlumat üçün onu da bildirək ki, bu mədəniyyət müəssisəsinin 95 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə əlaqədar yuxarıda adıçəkilən elmi-tədqiqat xarakterli məqalələrin əksəriyyəti “Şərq qapısı” qəzetində də dərc olunub.

Yeni nəşrdə Naxçıvanda muzey işinin təşəkkülündə və inkişafında mühüm rolu olan Naxçıvan Dövlət Tarix Muzeyinin ekspozisiyasında nümayiş etdirilən, Naxçıvanın qədim və zəngin tarixi ilə bağlı fotoqalereya bölməsi də vardır. Bu, bir əsrə yaxındır ki, tarixi-mədəni irsimizin yaradılması və təbliği ilə məşğul olan bu mədəniyyət müəssisəsinin fototəqdimatı baxımından da mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, tanıtım kitabı “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyət və nəfis tərtibatla nəşr edilib. Bu nəşrdə təqdim edilən tarixi və elmi məqalələr, eləcə də fotolar həm tədqiqatçılar, həm də geniş oxucu kütləsi üçün zəngin məlumat mənbəyi rolunu oynayacaq.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Polis əməkdaşları arasında şahmat yarışı



*Naxçıvan şəhərindəki Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin 40 əməkdaşı arasında şahmat yarışı keçirilib. İsveçrə sistemi üzrə təşkil olunan yarış başlanmazdan əvvəl Azərbaycan Respublikasının Dövlət Himni oxunub.*

Yarışın hakimi, beynəlxalq dərəcəli qrossmeyster Urfan Sevdimalıyev birinciliyin keçirilmə qaydaları barədə məlumat verdikdən sonra nazirliyin Təşkilati-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov muxtar respublikada idmanın bütün sahələrinin inkişafına göstərilən qayğıdan danışıb. Bildirib ki, “Bəşər tarixinin ən qocaman kəşfi” adlandırılan şahmatın da inkişafı diqqət mərkəzində saxlanılıb. Naxçıvan şəhərində müasir Şahmat Mərkəzi, rayon mərkəzlərində şahmat məktəbləri tikilib istifadəyə verilib, həmin obyektlərin maddi-texniki bazaları gücləndirilib. Bu gün muxtar respublikanın ümumtəhsil məktəblərində şahmat fənninin tədris olunması qədim diyarımızda bu idman növünə davamlı qayğının ifadəsidir. Hər il muxtar respublikada beynəlxalq və ölkədaxili şahmat festivallarının keçirilməsi isə Naxçıvanı beynəlxalq şahmat mərkəzlərindən birinə çevirib.

Rəşad Seyidov Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərovun adından idmançılara uğurlar arzulayıb, yarışın keçirilməsinə göstərdiyi köməkliyə görə Şahmat Federasiyasının rəhbərliyinə minnətdarlığını bildirib.

Nazirliyin Polis Veteranları Şurasının sədri, təqaüddə olan polis polkovniki Yusif Həsənov yarış iştirakçılarını təbrik edib, şahmatçılara qələbələr arzulayıb.

Sonra yarışa start verilib.

Nahar fasiləsindən sonra yarışın nəticələri ilə bağlı tədbir keçirilib, birinci yerə çıxmış Naxçıvan Dəmiryol Nəqliyyatında Polis Şöbəsinin əməkdaşı Qismət Novruzova, ikinci yerə sahib olmuş Babək Rayon Polis Şöbəsinin əməkdaşı Ramin Abdullayevə, üçüncü yerin sahibi Culfa Rayon Polis Şöbəsinin əməkdaşı Cəfər Məmmədova fəxri fərman və hədiyyələr təqdim olunub.

Polis polkovniki Rəşad Seyidov qalibləri təbrik edib, onlara xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, qaliblər Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə muxtar respublikanın nazirlik, komitə, xidmət, idarə və müəssisələrinin əməkdaşları arasında keçiriləcək şahmat turnirində iştirak edəcəklər.

**Xəbərlər şöbəsi**

*Bu gün diyarımızda bəzi həyətlərə daxil olarkən ağacların yarpaqsız budaqlarındakı qızıl payızın ərməğanı olan xurmalar diqqətimizi cəlb edir. Artıq bu meyvənin muxtar respublikamızda da yetişdirilməsinə başlanılıb. Bağlar diyarı olan Ordubad rayonunun bəzi kəndlərində bu meyvəyə daha çox rast gəlirik. Rayon sakini Sadiq Əliyev də xurma yetişdirən təsərrüfatçılardandır. Həyətyanı sahəsində xeyli sayda xurma ağacı olan müsahibim bu meyvənin xüsusiyyətləri və becərilməsi haqqında deyir ki, rayonumun münbit iqlim şəraiti onu yetişdirməyə imkan verir.*

# Qızıl payızın rəmzi meyvəsi



Ölkəmizdə xurmanın Şərq, Qafqaz və Virgin növləri və onların da müxtəlif sortları yayılıb. Rayonda isə bunun şişburun, yastı, xirnik, korolyok, nəlbəki kimi növləri var ki onlar, əsasən, oktyabr və noyabr aylarında yetişir. Hamıya bəllidir ki, xurmanın tam yetişməmiş meyvələri ağızbüzücü xüsusiyyətə malikdir. Bu, onun tərkibində aşı maddəsinin çox olması ilə bağlıdır. Lakin onun bir sıra növləri də var ki, yeyəndə bu, hiss olunmur. Onu da deyim ki, xurmanın meyvələrini dondurduqda bu xüsusiyyəti qismən aradan qalxır.

Sadiq əmi xurmanın şaxtayadözümlü olduğunu bildirir. Deyir ki, elə bu səbəbdən də havaların soyuması bu meyvəyə zərər vermir. Xurmanın vegetasiyası nisbətən gec başladığı üçün yaz şaxtalarından da ziyan çəkmir. Bu meyvənin ağacları yüksək rütubətə davamlıdır və əsasən, toxum və calaqla çoxaldılır. Əvvəlcədən tədarük olunmuş toxumları payızda qumla qarışıq halda birbaşa sahəyə səpmək də yaxşı nəticə verə bilir. Xurma ağaclarına həm yazda (aprel), həm də yayda (iyul-sentyabr ayları) calaq vurmaq mümkündür. Şoran, şorakət, qrunt suları üzdə olan, daşlı-çınqıllı torpaqlarda ağac bar vermir. O, əsasən, küləklərdən mühafizəli, günəş şüası ilə tam təmin olunmuş sahələrdə əkilməlidir. Xurma münbit torpaqlarda 200 il və ondan da çox yaşayır.

Xurma ağacları, əsasən, yazda (may ayında) çiçəkləyir, külək və həşəratlar vasitəsilə tozlanır. Ətirli və şirin dadlı xurma meyvələri əvvəl tünd-yaşıl, sonradan sarıçahrayı, tam yetişəndə isə qırmızı və ya qırmızı-qonur rəngdə olur. Ağac əkildikdən 4-5 il sonra bar verir. Mövsümdən asılı olaraq bir ağacdan 80-100 kiloqram, bəzən daha çox məhsul götürmək mümkündür. Ağaclara vaxtında aqrotexniki qulluq göstərilməsi də məhsul bolluğunda əhəmiyyət kəsb edir. Xurma xəstəliyə çox nadir hallarda yoluxur və susevən bitkidir. Bu ağacın dekorativ kol bitkisi kimi parklarda əkilməsi də mümkündür.

Müsahibimin sözlərinə görə, xurma meyvələri, əsasən, yağmursuz, günəşli havada toplanılır. Hazırda məhsul yığımı başlasa da, soyuq şəraitdə, üzərinə don düşdükdən sonra tam yetişir. Xurma ağacının yetkin meyvələri vitaminlərlə zəngindir. Meyvəsinin tərkibində 4-5, bəzilərində isə 6-7 ədəd çəyirdək olur. Xurmadan mürəbbə, cem bişirilir, unlu xörəklərdə istifadə edilir, həmçinin bəkməz, spirtli içkilər hazırlanır.

Xurma ağacının becərilməsində və yetişdirilməsində heç bir kimyəvi dərman preparatlarından istifadə olunmaması da onun ekoloji cəhətdən təmiz meyvə olduğunu göstərir. Fenol maddələri ilə zəngin olan meyvənin tərkibində qlükoza və fruktoza şəkəri, üzvi turşular, aşı maddələri, karotin, A, B, C vitaminləri və yod birləşmələri olduğuna görə onun mühüm müalicəvi əhəmiyyəti vardır. Zəiflik, qan və vitamin azlığı, xroniki mədə-bağırsaq xəstəlikləri zamanı çox faydalıdır. Bu meyvə həzm prosesinin fəaliyyətini artırır, orqanizmdə maddələr mübadiləsini nizama salır, həmçinin ürək-damar sistemi, göz xəstəliklərinin müalicəsinə yaxşı təsir göstərir. O həm də başəriyyətin bəlasına çevrilən xərçəng xəstəliyinə yoluxma riskini azaldır, tərkibindəki yod birləşmələri zob xəstəliyinin müalicəsində effektiv təsir göstərir. Büzüşdürücü və bakterisid xassəyə malik olduğu üçün vaxtilə onun meyvələrindən yaraların sağaldılmasında da istifadə olunub.

Sadiq Əliyev deyir: – Xurmanın qurudulmuşu da çox faydalıdır. Onun meyvələri bərk olanda yığılır, qabığı soyulur, iplərə keçirilir. Günəş şüası yaxşı düşən yerlərdə qurudulur. Bu meyvədən həm də alana hazırlayırıq. Qurudulmuş meyvəni və hazırladığımız alananı bazara çıxardırıq, alıcılarımız da çox olur. Xurmanın quru meyvəsini toz halına gətirib dadlandırıcı kimi istifadə etmək də mümkündür. Qurudulmuş meyvənin tərkibində şəkər və üzvi turşular olur.

Göründüyü kimi, payız mövsümünün dadlı meyvələrindən biri olan xurma həm insan sağlamlığı üçün faydalıdır, həm də onu yetişdirən zəhmət adamlarına yaxşı gəlir gətirən meyvələrdən biridir.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 9 dekabr 2019-cu il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2927,0 | 2584,0 | 343,0 |
| 2. | Babək rayonu | 10343,0 | 7520,0 | 2823,0 |
| 3. | Ordubad rayonu | 1369,0 | 524,0 | 845,0 |
| 4. | Culfa rayonu | 7106,0 | 6170,0 | 936,0 |
| 5. | Kəngərli rayonu | 4942,0 | 2856,0 | 2086,0 |
| 6. | Şahbuz rayonu | 1154,8 | 1130,0 | 24,8 |
| 7. | Sədərək rayonu | 2249,0 | 1621,0 | 628,0 |
| 8. | Naxçıvan şəhəri | 842,0 | 720,0 | 122,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **30932,8** | **23125,0** | **7807,8** |

# Tələbələr Almaniyaya təlimə göndərilib



Naxçıvan Dövlət Universitetinin Elektroenergetika ixtisasının tələbələrindən 7 nəfəri Almaniyaya birhəftəlik təlimə göndərilib. Günəş panellərinin istehsalı prosesi və digər alternativ enerji texnologiyalarının tətbiqi sahəsinə həsr olunan təlim “Pure Energy Development” SARL şirkətinin Almaniyanın Vismar şəhərindəki fabrikində keçiriləcək.

Universitetin rektoru, dosent Elbrus İsayev təlim məqsədilə Almaniyaya gedəcək tələbələrlə görüşüb, onlara uğurlar arzulayıb. Tədbirdə muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin mühüm əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

Rektor tələbələrin təlimdə iştirakını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təhsilə göstərdiyi qayğı kimi dəyərləndirib, gənclərə gələcəkdə əsl peşəkar kadr kimi formalaşıb muxtar respublikanın bu sahə üzrə mütəxəssisi olmağı tövsiyə edib.

**Səadət ƏLİYEVA**

## Azərbaycan Respublikasının Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu fəlsəfə doktoru hazırlığı üzrə 2019-cu il üçün doktoranturaya və dissertanturaya qəbul elan edir*

Naxçıvan Müəllimlər İnstitutunda doktorant və dissertant hazırlığı üzrə 2019-cu il üçün qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2019-cu il tarixli 737/S nömrəli Sərəncamı ilə təsdiq edilmiş plana əsasən aşağıdakı qaydada aparılır.

**Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul planı:**

*Büdcə hesabına, qiyabi təhsilalma forması.*

- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer;

**Ödənişli əsaslarla, qiyabi təhsilalma forması:**

- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 2 yer;
- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer;
- Pedaqoji psixologiya – 1 yer.

**Fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qəbul planı:**

*Büdcə hesabına, qiyabi təhsilalma forması.*

- Müəllim hazırlığı və fəaliyyəti – 1 yer;
- Sosial pedaqogika – 1 yer.

**Ödənişli əsaslarla, qiyabi təhsilalma forması:**

- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer;
- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer;
- Pedaqoji psixologiya – 1 yer.

Doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

Doktoranturaya qəbul (habelə dissertanturaya təhkimolunma) üçün aşağıdakı sənədlər təqdim edilir:

- *Naxçıvan Müəllimlər İnstitutunun rektorunun adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş yerindən xasiyyətnamə;*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsili haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
- *xarici dil bilikləri üzrə beynəlxalq sertifikat (əgər varsa);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”nın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2019-cu il tarixli 443 nömrəli Qərarı ilə təsdiqlənmiş yeni redaksiyasının tələbləri əsasında aparılır.

Sənədlərin qəbulu iş günlərində, 28 dekabr 2019-cu il tarixədək saat $9^{00}$-dan $17^{00}$-a kimi aparılır.

Əlavə məlumat almaq üçün Naxçıvan Müəllimlər İnstitutunun Elmi hissəsinə müraciət etmək olar.

**Ünvan: Naxçıvan şəhəri,**
**Heydər Əliyev prospekti 2**
**Naxçıvan Müəllimlər İnstitutu**
**Elmi hissə (otaq № 208)**
**Əlaqə telefonu:(+994 36) 544 04 29**
**E-mail: elmihisse@nmi.edu.az**

### *İtmişdir*

Şərur rayonu, Yengicə kəndində yaşamış Əliyev Əli Ələkbər oğlunun adına verilmiş JN-579 nömrəli torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Şəhriyar kənd sakini Əsgərov Xəqani Ələkbər oğlunun adına olan JN-221A inventar nömrəli, 10214018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 845